

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

1933-cü ildən nəşr olunur

№ 38-39
(7087-7088) Cümə, 17 may 2013-cü il Qəzet ayda 4 dəfə çıxır Qiyməti 40 qəpik



## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

Bakıda ümummilli lider Heydər Əliyevin 90 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimi keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmiş və geniş nitq söyləmişdir.

* * *

Dövlətimizin başçısı İlham Əliyev Bakıda yeraltı avtomobil dayanacağının üstündə salınan park, bağ və fəvvarələr kompleksinin açılışında iştirak etmişdir.

* * *

Mayın 12-də Azərbaycan Prezidenti İlham Əliyev Avstriya Respublikasına rəsmi səfərə gəlmişdir. Təyyarə limanında rəsmi qarşılanma mərasimindən sonra Prezident ilk öncə Vyanada Üzeyir Hacıbəylinin abidəsini ziyarət etmişdir.

Mayın 13-də Azərbaycan Prezidenti İlham Əliyevlə Avstriya Respublikasının Prezidenti Haynis Fişerin əvvəlcə təkbətək, sonra isə geniş tərkibdə görüşləri olmuş, «Azərbaycan Respublikası və Avstriya Respublikası arasında dostluq münasibətləri və tərəfdaşlığa dair Bəyannamə» imzalanmış, Azərbaycan və Avstriya prezidentlərinin mətbuat konfransı olmuşdur.

Həmin gün Vyanada Avstriya-Azərbaycan biznes forumu keçirilmişdir. Prezidentlər forumda iştirak etmişlər.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Avstriyanın Baş naziri Verner Fayman ilə görüşmüşdür.

* * *

Vyanada Azərbaycan Mədəniyyət Mərkəzinin açılışı olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak etmişlər.

**Miri RƏHİMOV.**

# Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya olan tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Son illərdə Azərbaycan Respublikasında torpaqlardan istifadənin səmərəliliyinin artırılması və əkinə yararlı torpaqların genişləndirilməsi məqsədi ilə əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, o cümlədən əhalinin içməli suya olan tələbatının ödənilməsi sahəsində məqsədyönlü tədbirlər həyata keçirilir.

Hazırda tikilməkdə olan Taxtakörpü və Şəmkirçay su anbarlarının istismara verilməsi nəticəsində daha 200 min hektar torpaq sahəsinin suvarma suyu ilə təminatı yaxşılaşdırılacaq, 50 min hektardan artıq torpaqların isə əkin dövriyyəsinə daxil edilməsi mümkün olacaqdır.

Təkcə 2005-2012-ci illərdə respublikanın 34 şəhər və rayonunun 407 yaşayış məntəqəsində 721 ədəd subartezian quyusu qazılmış, habelə 400 min nəfər əhalinin yaşadığı 221 kənddə sakinləri ekoloji təmiz içməli su ilə təmin etmək məqsədi ilə modul tipli sutəmizləyici qurğular quraşdırılmışdır.

Bu istiqamətdə işlərin davam etdirilməsinin vacibliyini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Əhalisi 310 min nəfərdən çox olan Respublikanın 29 rayonunun 104 yaşayış məntəqəsində (Siyahı əlavə olunur) əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün cari ildə subartezian quyularının layihələndirilməsi və qazılması məqsədi ilə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə Azərbaycan Respublikasının 2013-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 6,0 (altı) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti.**
*Bakı şəhəri, 15 may 2013-cü il.*

### Heydər Əliyev—90

# Heydər Əliyev və Azərbaycan təhsili

Müasir Azərbaycanda dövlət quruculuğunun, iqtisadi tərəqqinin, siyasi sabitliyin, ictimai şüurun son 40 ildən artıq bir dövrü özünü dünya siyasətinin görkəmli xadimlərindən biri kimi tanıdan Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyev müstəqillik yolunda ilk qədəmlərini atan Azərbaycanın ən mürəkkəb və taleyüklü dövründə dövlətə rəhbərlik məsuliyyətini öz üzərinə götürərək xilaskarlıq və quruculuq missiyasını böyük şərəflə yerinə yetirməklə xalqımızın ən görkəmli şəxsiyyəti olaraq tarixdə silinməz iz qoymuşdur.

Ölkəmizin dövlət müstəqilliyi, xalqımızın azadlığa qovuşması, ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatında baş verən yeniliklər, əldə olunan nailiyyətlər, ümummilli liderimiz, dünya şöhrətli şəxsiyyət, parlaq düha sahibi, Azərbaycanın şanlı övladı Heydər Əliyevin unudulmaz adı və fəaliyyəti ilə bağlıdır.

Heydər Əliyev çox çətin, ağır mübarizə və qələbələrlə dolu şərəfli bir ömür yaşadı.

Azərbaycanın iftixarı, qüdrətli dövlət xadimi və yenilməz siyasətçi Heydər Əliyev özünün möhtəşəm fəaliyyəti ilə dünya azərbaycanlılarının ümummilli lideri səviyyəsinə yüksələrək, Azərbaycan xalqının yaddaşında və qəlbində şöhrəti və nüfuzu sərhədsiz olan iradəli bir rəhbər olaraq qalmışdır.

«Həyat böyük bir prosesdir. Bu prosesdə uğurla iştirak etmək üçün insan müasir tələblərə uyğun olan təhsilə malik olmalıdır. Təhsil də daim təkmilləşdirilməlidir» deyən Heydər Əliyev təhsilin inkişafına xüsusi diqqət yetirdi.

Ulu öndər 1998-ci ildə ölkəmizdə təhsil islahatları aparılmasına dair xüsusi sərəncam verdi. Təhsil sahəsində islahat proqramının hazırlanması üçün dövlət komissiyası yaradıldı. Qısa müddətdə hazırlanan «Təhsil sahəsində İslahat Proqramı» 1999-cu il iyunun 15-də ölkə başçısı tərəfindən imzalandı.

İslahat proqramına əsasən, ölkənin ümumi təhsil pilləsinin məzmununun yeniləşdirilməsi qarşıda ən mühüm bir vəzifə idi. Eyni zamanda məktəb tikintisi, təmiri və təchizatı diqqət mərkəzində idi. 1998—2002-ci illərdə respublikamızda 116 yeni məktəb inşa edildi.

Müstəqilliyimizin ilk illərində ölkənin maliyyə çətinliyi qarşısında qaldığı, ən mühüm həyati əhəmiyyət kəsb edən sahələri belə maliyyələşdirməyə dövlətin vəsait ayırmağa çətinlik çəkdiyi bir vaxtda ulu öndər Heydər Əliyev təhsilə xüsusi qayğı göstərir, çətinliklərə baxmayaraq büdcədən təhsilə ayrılan xərclər ildən-ilə artırdı. Əgər 1990-cı illərdə təhsil sektoruna ümumi büdcədən o vaxtki qiymətlərlə **113,2 milyard manat vəsait ayrılmışdısa, bu rəqəm 1995-ci ildə 376,8 milyrad manata, 2000-ci ildə 906 milyard** manata, 2003-cü ildə isə 1990-cı ilə nisbətən 10 dəfədən də çox artırılaraq 1216 milyard manata çatmışdır.

Heydər Əliyevin daimi diqqət mərkəzində duran məsələlərdən biridə müəllimlərin sosial müdafiəsinin gücləndirilməsi idi. 1993—2003-cü illər ərzində təhsil işçilərinin əmək haqqı 9 dəfə artırılmış, bunun üçün xüsusi Prezident fərmanları imzalanmışdır.

Azərbaycanlı gənclərin xaricdə təhsil alması da dövlət qayğısında olan məsələlərdən biri idi.

**(Ardı 2-ci səhifədə).**